TÜRK MİFOLOJİ SİSTEMİNDƏ KOSMOGENEZ VƏ TÜRK YARADILIŞ DASTANLARI

Posted on Mart 24, 2012 by Bəxtiyar Tuncay

BƏXTİYAR TUNCAY

(“Türk Kosmoqonik Təsəvvürlərində üçqatlı dünya modeli və onun mifik sakinləri” kitabından bir parça)

Ən qədim zamanlardan bəşəriyyət tarixinin ayrılmaz tərkib hissəsi kimi çıxış etmiş miflərin toplanmasına və dərcinə əsrlər öncə başlanılsa da, mifologiya barədə saysız-hesabsız tədqiqat əsərləri yazılıb, dərc edilsə də bu sahədə görülməli işlər indiyə qədər görülmüş işlərdən hələ də daha çoxdur. Eyni sözləri qədim türk mifik süjet və motivlərinin toplanılması və dərci barədə də söyləmək olar.

Türk xalqlarının mifoloji sistemi, xüsusən də şamanist türklərin mifoloji təsəvvürləri olduqca mürəkkəbdir. Bu təsəvvürlər hələ də yetərincə öyrənilmənmişdir. Bununla belə, ümumtürk mifologiyasının vahid süjet ətrafında bərpasına, ayrı-ayrı süjet və motivlər arasında əlaqənin sistemli şəkildə öyrənilməsinə, həmin süjet və motivlərin sonrakı tarixi mərhələlərin əlavə, dəyişiklik, çarpazlaşma və təhriflərindən arınmasına, onların paradiqmalarını müqayisə edərək, ilkin arxetiplərinin bərpasına kompleks şəkildə cəhd edilməmişdir, desək, bir o qədər də doğru olmaz. Bu gün elm aləminə Bahəddin Ögəlin “Türk mifologiyası” (2006), Mirəli Seyidovun “Azərbaycan mifik təfəkkürünün qaynaqları” (1983), Ağayar Şükürovun “Mifologiya. Qədim türk mifologiyası” (1997), C. Bəydilinin “Türk mifoloji sözlüyü” (2003 b) və “Türk Mifoloji obrazlar sistemi: struktur və funksiya” (2007 c), Füzuli Bayatın “Mifolojiye giriş” (2007 a) və 2 cildlik “Türk mifolojik sistemi” (2007 b, 2007 c), Seyfəddin Rzasoyun “Oğuz mifologiyası” (2009) və s. bu kimi sanballı tədqiqat əsərləri məlumdur və həmin əsərlər bu istiqamətdə irəliyə doğru atılmış olduqca böyük addımlardır. Deyilənlərə Y. V. Çəmənzəminli

(1977), M. H. Təhmasib (1946, !959, 1972), X. Koroğlu (1999), B. Abdulla (1999, 2004, 2005), M.H, Tantəkin (1983, 2004), R. Əliyev (1991, 1992, 2001,2005 a, 2005 b,2006 a, 2006 b, 2006 c, 2006 d, 2006 e, 2008), A. Nəbiyev (1997, 2002, Nəğmələr, inanclar, alqışlar, 1986), A. Acalov (1983), F. Bayat (1993,2003 a, 2003 b, 2003 c, 2005, 2006), C. Bəydili (2001 b,2003 a, 2004 d, 2004 e, 2004 ə,2007 a, 2007 b, 2007 c), M. Cəfərli (2001), A. Hacılı (2002 a, 2002 b), B. Həqqi (2003), R. Qafarlı (1999, 2002,2004 a, 2004 b, 2008), İ. Ağazadə (2008), Ş. Albalıyev (2006, 2007a, 2007b, 2008) və s. Azərbaycan alimlərinin də tədqiqatlarını əlavə etmək olar və lazımdır. Fəqət bütün bunlar tam yetərli hesab edilə bilməz və görüləsi işlər hələ də olduqca çoxdur.

Görkəmli türkiyəli tədqiqatçı İ. Kafesoğlu haqlı olaraq bildirir ki, bütün millətlər fərdləri toplu olaraq bir arada bulunduğu üçün hər hansı bir zamandakı durumunu açıqca təsbit və tədqiq mümkün olduğu halda, dağınıq şəkildə yaşayan türk kütlələrinin bir-birindən fərqli gəlişmə yolları təqib etmələri səbəbi ilə türk tarixini bəlirli zaman kəsimində bütün halında dəyərləndirmək asan olmamaqdadır (Kafesoğlu, 1986, səh. 3).

Bu sözləri eyniylə türk mədəniyyətinə və mifoloji sisteminə də aid etmək olar. Bununla belə, sami mənşəli dinlərin – müsəviliyin, xristianlığın və İslamın, eləcə də buddizm, hinduizm və s. kimi Uzaq Şərq dinlərinin təsiri altına düşməyən və əski şamanist baxışlarını dövrümüzədək qoruyub saxlayan ayrı-ayrı türk xalqlarının ilkin mifoloji təsəvvürlərinin öyrənilməsi sahəsində böyük iş görülmüşdür və bu istiqamətdə rusiyalı tədqiqatçların rolu əvəzsizdir. Məhz onların səyi və yorulmaz əməyi nəticəsində xeyli faktoloji material toplanmış, təhlil süzgəcindən keçirilmiş və dərc edilmişdir. Onların sırasında F. G. Cmelinin (1752), N.S. Şukinin (1833), F. Solovyovun (1878), N. S.

Qoroxovun (1884), N. P. Pripuzovun (1884), V.İ. Verbitskinin (1886; 1893), A. O. Sventsovun (1886), V. L. Priklovskinin (1886; 1890; 1893), N. F. Katanovun (1891; 19897; 1900; 1907), N. A. Vitaşevskinin (1890; 1911; 1918), C. V. Yastremskinin (1897), M. İ. Raykovun (1898), O. V. Suxovskinin (1901), V. F. Troşanskinin (1904), V.V. Radlovun (1905), İ. Kornilovun (1908), S. Y. Malovun (1909; 1924); V. İ. Vasilyevin (1910), A. F. Anoxinin (1910), V. M. İonovun (1913; 1918), A. Y. Kulakovskayanın (1923, 1979), E. P. Pekarskinin (1910; 1925; 1959), L. P. Potapovun (1926; 1934; 1935; 1947; 1949; 1960; 1966;1969 a; 1969 b; 1970; 1977; 1978; 1981), İ. P. Dırenkovanın (1930; 1940; 1948), Q. V. Ksenefontovun (1928; 1929; 1931; 1977), L. E. Korunovskayanın (1935), A. A. Popovun S. A. Tokarevin (1939; 1940; 1947;1964 a; 1964 b; 1966;), Q. U. Erqisin (1945; 1979), İ. S. Qureviçin (1948 a; 1948 b; 1966; 1968; 1977; 1980), Vçeraşnyayanın (1955), S. P. Tolstovun (1960), S. İ. Vaynşteynin (1961; 1964), E. D. Prokofyevin (1961; 1971), N.A. Alekseyevin (1965;1980 a; 1980 b; 1980 c;1982 a; 1982 b; 1984), S.M. Abramzonun (1971), D. D. Sofronovun (1974), F. A. Satlayevin (1974), V. F. İvanovun (1974), İ. K. Antonovun (1971), İ. D. Xlopininin (1978), L. V. Çançibayevanın (1978) və digərlərinin adlarını çəkmək lazımdır.

Bunlarla yanaşı isveçli E. Emşayner (Emsheiner, 1948), macar V. Dioszegi (1962), fin A. İ. Siiakala (1978), ingilis M. Eliade (1970) və s. kimi avropalı tədqiqatçıların adları da mütləq qeyd edilməlidir.

Məlumat üçün bildirməliyik ki, Sibir və Altayın ayrı-ayrı türk xalqlarının mədəniyyətinin, dünyagörüşünün tədqiqi müxtəlif dövrlərdə və pərakəndə şəkildə aparılmışdır. Buna baxmayaraq, son 2-3 əsrdə yetərincə faktoloji material toplanmış və

müəyyən qədər sistemləşdirilmişdir. Bu işdə rusiyalı tədqiqatçıların, şübhəsiz ki, müstəsna xidmətləri olub. Məsələnin çətinliyi həm də onda olmuşdur ki, Sibir və Altay türkləri coğrafi baxımdan çox geniş bir ərazidə yayılmışlar, tarixin ayrı-ayrı dövrlərində aralarındakı əlaqə nisbətən zəif olmuş, bu da zamanla onların maddi və mənəvi mədəniyyətində, etnoqrafik xüsusiyyətlərində olduğu kimi, inanc sistemlərində də müəyyən özünəməxsus fərqlərin ortaya çıxmasına səbəb olmuşdur. Bu fərqlərin digər bir səbəbi isə həmin xalqların qonşuluqlarında yaşadıqları fərqli etnos və xalqların mədəniyyətləri ilə çoxəsirlik təməsları, onlarla qarşılıqlı mədəniyyət mübadiləsində iştirak etmələridir. Doğrudur, türklərin digər xalqlara mədəni təsiri onların türk xalqlarına olan mədəni təsirindən qat-qat çoxdur, fəqət, cüzi də olsa, mövcud olan yad təsirlər öz işini görmüşdür.

Sibir və Altayın türk xalqları içərisində mənəvi mədəniyyəti, inanc sistemi daha yaxşı öyrənilmiş xalqalrdan biri və bəlkə də birincisi saxa-yakutlardır. Əsasən Rusiya Federasiyasının Yakutiya-Saxa Muxtar Respublikasında, eləcə də Evenk və Taymır milli dairələrində, qismən də Maqadan, Saxalin və Amur vilayətlərində yaşayan və ümumi sayları yarım milyon civarında olan saxaların (yakutların) dili cuvaş türklrinin dili ilə yanaşı, türk dillərinin ana kökdən ən çox uzaqlaşmış iki ləhcəsindən biridir. Görkəmli türkoloq Fərhad Zeynalovun yazdığına görə, yakut dilində özünü göstərən fərqlənmələr bir tərəfdən bu dilin ən qədim türk qəbilə və tayfa birliklərinin təmərküzləşməsi nəticəsində ortaya çıxması, sonralar yeni türk dilləri, əsasən, Sibir türkləri (xakas, şor, tuva, çülım və s.) ilə təmasda olması və ən başlıcası isə monqol, tunqus-mancur, evenk dillərinin təsiri altında olması ilə izah oluna bilər (Zeynalov, 1981, səh. 335).

Yakut dilinin digər türk ləhcə və şivələrindən uzaq düşməsinin əsas səbəblərindən biri coğrafi baxımdan digər türk soy və boylarından bir qədər aralıda qalması, digəri isə, yuxarıda söylənildiyi kimi, bu dilin monqol, tunqus-mancur və evenk dillərinin təsirinə məruz qalmasıdır. Özünü dildə göstərən bu mədəni təsir saxa-yakutların inanc sistemində də göstərmiş, nəticədə yakut şamanizminə xas terminoloji lüğətlə digər şamanist türklərin terminləri, eləcə də mifik süjet və motivləri arasında müəyyən gözəgəlimli fərqlər yaranmışdır.

XVll əsrin yazılı mənbələrində saxa – yakutların inancları barədə qeydlərə çox nadir hallarda rast gəlinir. Eyni hal XVlll əsrin ilk rübündə də davam etmişdir. Yəni sözügedən zaman dilimində bu xalqın inanclar sistemi xüsusi tədqiq olunmamışdır. Həmin dövrdə daha çox saxa-yakutların yaşadıqları ölkənin coğrafiyası, bu xalqın tarixi və etnoqrafiyası diqqət mərkəzində olmuşdur (Иванов, 1974, c. 77). S.A. Tokarevin fikrincə, XVll – XVlll əsrin ilk rübündə regiona göndərilən ekspedisiyalara rəhbərlik etmiş İ. K. Kirillov, V. N. Tatişev, Q. F. Miller, İ. Q. Qmelin və Y. İ. Lindenaunun qeydləri o qədər ətrafı və zəngindir ki, Sibirin etnoqrafiyası barədə əvəzsiz mənbə rolunu oynaya bilərlər (Токарев, 1966, səh. 87).

Saxa-yakutların inanclar sisteminin bilavasitə tədqiqat obyektinə çevrilməsi əsasən XlX-XX əsrləri əhatə etməkdədir ki, bu istiqamətdə İ. A.. Xudyakovun, N. A. Vitaşevskinin, V. M. İonovun, E. K. Pekarskinin, V. L. Seroşevskinin, V. F. Troşanskinin, S. V. Yastremskinin, V. N. Vasilyevin əməyini xüsusi qeyd etmək lazımdır. N. A. Alekseyev (Алексеев, 1984, c. 11-12) həmin dövrdə dərc edilmiş tədqiqat əsərlərini üç qrupa ayırır:

1. Yakutların inancları barədə sosial proqramların nəticələri (Соловьев, 1976;

Припулов, 1884; Слепцов, 1886); 2. Yakutların inanc sisteminə onların etnoqrafiyasına həsr edilmiş tədqiqatlar çərçivəsində toxunulması (Миддендорф, 1896, səh. 789-828; Маак, 1887; Худяков, 1969; Серошевский, 1896); 3. Xüsusi dinşünaslıq mövzulu tədqiqatlar (Виташевский, 1890; Ястремский, 1897; Трошанский, 1904; Приклонский, 1886; Пекарский, Васильев, 1910).

Saxa – yakutlardan sonra inanclar sistemi daha yaxşı tədqiq edilmiş ikinci şamanist türk xalqı altaylılardır. Əsasən Rusiya Fedrasiyasının Dağlıq Altay Muxtar Vilayətində yaşayan altaylıların, başqa sözlə Altay türklərinin ümumi sayları yüz min civarındadır. Fərhad Zeynalovun yazdığına görə, bu xalqın dili genetik cəhətdən daha çox qırğız türkcəsi ilə ümumi cəhətlərə malikdir:

"Bu dil Sibirdə yaşayan dillər içərisində inqilaba qədər az-çox tədqiq edilən dillər cərgəsindədir…

Altay dilinin dialektləri (onu da qeyd edək ki, bu dialekt və şivələr rəngarəng tayfa və qəbilə birləşmələrinin mürəkkəb birləşməsi nəticəsində əmələ gələrək, bir-birindən çox fərlənir" (Zeynalov, 1981, səh. 195).

Altay türklərinin dili və etnoqrafiyası kimi inanclar sistemi də XlX əsrin ikinci yarısına qədər kimsə tərəfindən xüsusi olaraq öyrənilməmişdir. Yalnız XlX əsrin ikinci yarısından etibarən Altay şamanlarının mərasim və inanclarndan bəhs edən qeydlərə rast gəlinməkdədir. Bu baxımdan V. İ. Verbitskinin əməyini xüsusi qeyd etmək lazımdır (Вербицкий, 1886; 1893). Onun ən böyük xidməti yuxarı və aşağı dünyaların xeyir və şər başçıları Ülgen və Erlikə yönəlik duaların yazıya köçürülməsi (Вербицкий, 1893, с.

1-12) və Altay animizminin ətarflı təhlil və izahının (Вербицкий, 1893, с. 43-77) verilməsidir. Eyni zamanda, 1860-1870 – ci illərdə Altaya səyahət edən və geniş tədqiqatlar aparan V. V. Radlovun Altay türklərinin inanclar sisteminə həsr etdiyi və 1893-cü ildə nəşr etdirdiyi kitabını da xüsusi vurğulamaq lazımdır. Görkəmli rus alimi S. Y. Malov haqlı olaraq yazır ki, bu istiqamətdə XlX əsrdə və XX əsrin əvvəllərində görülmüş bütün böyük işlərin əksər hissəsi bilavasitə V. V. Radlovun adı ilə bağlıdır (Малов, 1924, с. 1). Altay türklərinin inanclar sisteminin öyrənilməsi sahəsində A. V. Anoxinin xidmətləri də ölçüyəgəlməzdir. Onun Altay şamançılığına həsr etdiyi fundamental əsərinin (Анохин, 1924) birinci fəslində Altayın ruhlar, tanrıçalar və mifik varlıqlar aləmi və onlara həsr edilmiş mərasimlərdən, ikincisində dünyanın və insanın yaranışı barədə mifik süjetdən, üçüncüsündə insanın mahiyyəti, onun ölümdən sonrakı həyatı və şamanlar barədə təsəvvürlər sistemindən bəhs edilir. Kitabın dördüncü fəsli ruhlara verilən qurbanlar, beşincisi şaman davulu (qavalı) və geyimləri barədədir. Altıncı fəsildə ovsunlar, yeddincidə isə müəllifin görüşüb söhbət etdiyi şamanlar haqqında qeydlər yer alır.

Bu istiqamətdə tədqiqatlar sovet dövründə də davam etmişdir. L. E. Karunovskayanın (Каруновская, 1923), N. P. Dırenkovanın (Дыренкова, 1930, 1931, 1949), S. A. Tokarevin (Токарев, 1947), L. P. Potapovun (Потапов, 1929, 1934, 1935, 1947, 1969 a, 1969 b, 1970, 1977, 1978), V. P. Dyakonovanın (Дьяконова, 1976, 1981 a, 1981 b), F. A. Satlayevin (Сатлаев, 1974), L. V. Çançibayevanın (Чанчибаева, 1978) və s. fəaliyyəti məhz həmin dövrü əhatə etməkdədir.

Dini-mənəvi inanclar sistemi nisbətən daha yaxşı öyrənilmiş türk xalqlarından biri də xakaslardır. Ümumi sayları yüz mindən bir qədər artıq olan xakaslar əsasən Rusiya Federasiyasının Xakas Muxtar Vilayətində yaşayırlar, dilləri genetik cəhətdən qırğız türklərinin dili ilə bağlıdır (Zeynalov, 1981, səh. 311). Onların mifik təsəvvürlərinin, həmin təsəvvürlərlə bağlı mərasimlərinin tədqiqi istiqamətində ilk pioner rolunda P. Ostrovskix (Островских, 1895) çıxış etdsə də, əsas xidmət N. F. Katanovun adı ilə bağlıdır (Катанов, 1924). S. Y. Malov haqlı olaraq yazır ki, N. F. Katanov öz həmsoylarının – Abakan çayı hövzəsi türklərinin, eləcə də monqolların şimal-qərb qolu olan uryanxayların şamanist təsəvvürlərinin öyrənilməsində göstərdiyi fədəkarlığa görə hər cür tərif və təqdirə layiqdir (Малов, 1924). Bu böyük tədqiqatçı ilə yanaşı L. P. Potapovun da xidmətlərini (Потапов, 1961, 1971, 1981) xüsusi qeyd etmək lazımdır.

Hazırda Rusiya Federasiyasının Şimali Altay və Kuznetsk Alatau rayonu ərazisində, Xakas və Dağlq Altay muxtar vilayətlri ilə qonşuluqda yaşayan, ümumi sayları 30-35 min olan şorların mifik təsəvvürlərinin və şamanist mərasimlərinin qeydə alınmasında və tədqiqində əsas rolu S. Malov (Малов, 1909), A. V. Anoxin (Анохин, 1916), N. P. Dırenkova (Дыренкова, 1930, 1940), Y. D. Prokofyeva (Прокофьева, 1961), İ. D. Xlopina (Хлопина, 1978) oynamışlar.

İnancları tədqiqat obyektinə çevrilmiş türk xalqarı içərisində, əslində buddist-lamaist olan, fəqət əski şamanist ənənlrini də qətiyyən unutmayan tuvalıların da adını çəkmək olar. Ümumi sayları iki yüz mindən bir qədər artıq olan bu xalq əsasən Rusiya Federasiyasının Tuva Muxtar Respublikasında yaşayırlar. 1921-ci ilədək monqol dilində

təhsil almaq məcburiyyətində qalan tuvalıların dilində çox sayda monqol mənşəli söz bulunmaqdadır (Zeynalov, 1981).

Tuvalıların şamanist təsəvvürləri və mərasimləri barədə ilkin məlumatlara N. F. Katanovun (Катанов, 1907), Q. Y. Qrumm-Qrjimaylonun (Грум-Грижмайло, 1926) və F. Y. Konun (Кон, 1934) əsərlərində rast gəlinməkdədir. Fəqət daha dərin və əsaslı tədqiqatlar L. P. Potapov (Потапов,1960, 1966, 1969 a), V.P. Dyakonova (Потапов, 1969 a, səh. 371-398, Дьяконова, 1975, 1976, 1977, 1981 b) və S. İ. Vaynşteyn (Вайнштейн, 1961, 1964) tərəfindən aparılmışdır. Eyni mövzuya S. P. Tolstov (Толстов, 1960) və E. D. Prokofyev (Прокофьев, 1961, 1971, c. 70-73) də toxunmuşlar.

Mənbələrdə bəzən tubalılar, bəzənsə qaraqaşlar // karaqaslar da adlandırılan və dilləri tuva türkcəsinin bir şivəsi olan tofalıların şamanist təsəvvür və mərasimlərinə isə bu və ya digər dərəcədə N.F. Katanovun (Катанов, 1891) və S.A. Tokaryevin (Токарев, 1947, 1964 a) əsərlərində toxunulmuşdur.

Dünyanın bütün qədim mədəni xalqlarının, o cümlədən qədim hindli və yunanlıların, eləcə də sami xalqlarının mifoloji sistemlərində olduğu kimi, qədim türk mifoloji siteminin təməl daşını da dünyanın, kainatın yaradılması barədə mifik süjet təşkil edir. Tək Tanrıya sitayiş edən türklərin təsəvvürünə görə, yuxarıda Göy, aşağıda Yer yarandıqdan sonra onların arasında insan oğlu əmələ gəlmişdir. Nizami Cəfərov yazır:

"Dünyanın damı olan mavi göydə doğan günəş qədim türklər arasında xüsusi ilahi məzmun daşıdığından xaqanın – türk hökmdarının çadırı həmişə üzü şərqə qurularmış. Yür insanların məskunlaşdığı dörd tərəfdən ibarət sonu dənizlərlə əhatə olunmuş kifayət

qədər geniş bir məkan kimi təsəvvür olunmuşdur. Gündoğan – irəli, günbatan – geri, buradan irəli gələrək, cənub sağ, Şimal isə sol tərəf sayılmışdır ki, bu da qədim türklərin zəngin coğrafi maraqlarının olduğunu göstərir" (Cəfərov, 2004, səh 13).

Müxtəlif xalqların miflərinin tədqiqi göstərir ki, kainatın yaradılması – kosmogenez prosesi müəyyən nizam əsasında cərəyan edir. İlkin xaosdan yerin yaranması, onun göydən ayrılması hadisəsi yer və göy cisimlərinin (Günəş, Ay, ulduzlar, dağ, dəniz və s.) ortaya çıxmasına səbəb olmuşdur. Yaradılış modelləri formulları içərisində üçlü dünya modeli (göy, yer üzü və yeraltı dünya) bir çox xalqların mifik görüşlərinin əsasını təşkil etmişdir. Fəqət həmin modelin türk variantı diqqəti xüsusi çəkməkdədir.

Şamanist türklrin dünyanın yaradılmasına baxışı təktanrıçı soydaşlarının baxışından bəzi elementlərinə görə fərqlənmişdir. Bu, Sibir və Altaydan toplanmış çoxsayl miflərdən açıq-aydın görünməkdədir. Həmin miflərin əksəriyyətində insan hələ yer və göy yaradılmamışdan öncə yaradılır və yerin yaranmasında Tanrı ilə birlikdə iştirak edir.

Bahəddin Ögəl haqlı olaraq yazır ki, Orta Asiya və Sibirdə söylənən yaradılış əfsanələri içərisində ən böyüyü və doğru olanı V. Radlov tərəfindən toplanan və Altay türklərinə aid olan əfsanədir (Ögəl, 2006, səh. 416). Mərkəzində Tanrının durduğu və aparıcı rola sahib olduğu bu dastan yarandığı dövrdən ən azı 5-6 min il sonra qələmə alınsa da ilkin məzmun və mahiyyətini, cüzü fərqlər nəzərə alınmazsa, bütünlüklə qoruyub saxlaya bilmişdir. XlX əsrdə məşhur türkoloq V. Radlov tərfindən yazıya köçürülmüş "Yaradlış" dastanının (Dünyanın yaranması haqqında) məzmunu belədir:

(l variant)

Yerin yer olduğu vaxt suyla doluydu hər yer,

Nə göy vardı, nə də ay, nə günəş, nə də bir yer.

Tanrı uçub dururdu, insan oğlu tənhaydı,

O da umub durur, sanki, Tanrıya taydı.

Uçar, hey uçardılar, yer yoxdu, qonmazdılar,

Tanrı olduqlarıyçün əsla yorulmazdılar.

Bu Tanrının yox idi nə qayğısı, nə işi

İnsan oğlunun isə bitmədi pis vərdişi.

Bir külək yaratmışdı suları qaynadaraq,

Tanrını hirsləndirdi üzünə sıçradaraq.

Elə bildi o yazıq bununla bütün oldu,

Guya xeyli güclənib Tanrıdan üstün oldu.

Amma necə oldusa, suya yıxıldı birdən,

Gömüldükcə gömüldü, dənizə daldı birdən.

Başladı yalvarmağa, gördü ki, iş çox ağırdı,

"Qurtar məni ey Tanrı!" – deyə möhkəm bağırdı.

Tanrı insafa gəldi, bağışladı özünə,

Dedi: "Ey insan oğlu, çıx suların üzünə!"

Tanrının buyruğuyla insan oğlu qurtuldu.

Getdi onun yanına, ağıllı-başlı durdu.

Tanrı birdən buyurdu: "Yaradılsn möhkəm daş!"

Dənizlərin dibindən çıxdı üzə sal bir daş.

Daş üzə-üzə gəlib çatdı Tanrı önünə,

Tanrı insanı alıb çıxdı daş üstünə.

Tanrı bir gün insana belə bir buyruq verdi:

"En suların dibinə, oradan torpaq al!"-dedi.

İnsan daldı sulara, aldı bir ovuc torpaq,

Sualrdan çıxdı, gəldi Tanrıya uzadaraq.

"Yaradılsın Yer!" – deyib Tanrı torpağı saçdı,

Yer üzü yaradıldı, dənizlər qurulaşdı.

İnsana belə dedi Tanrı ona baxaraq:

"Dal sularn dibinə, gətir bir az da torpaq!"

İnsan dedi: “Mən suya bir dəfə də dalaram,

Bu dəfə öz payıma bir az torpaq alaram”.

Daldı suyun dibinə hey düşünə-düşünə,

İki ovuc torpaqla çıxdı suyun üzünə.

Düz bir ovuc torpağı soxaraq tez ağzına,

O birini uzadıb verdi Göy Tanrısına.

Öz-özünə söylədi: “Qoy mən bunu saxlayım,

Sonra dənizə səpib özümə torpaq alım”.

Tanrı torpağı aldı dənizin üstünə saçdı,

Tanrının istəyiylə birdən yer qalınlaşdı.

İnsanın ağzındak gizli saxlanan torpaq

Böyüməyə başladı boğazını sıxaraq.

Nəfəsini tıxadı, boğacaqdı az qala,

Can hövlüylə başladı qaçmağa sağa-sola.

“Oh, Tanrıdan qurtardım” – düşündüyü zaman,

Baxıb gördü ki, Tanrı orda durub bayaqdan.

Lap boğulmaq üzrəykən söylədi bu kəlməni:

“Ey Tanrı, gözəl Tanrı! Nə olar, qurtar məni!”

Tanrı hirslənib dedi: “Sən nə etdin, nə yapdın?!

Gözləyəcəyəm deyə ağzına torpaq aldın.

Niyə belə düşüncə yer eyləyib ağlında,

Torpaq nəyinə lazım, gizləyirsən ağznda?”

İnsan dedi: “Ey Tanrı, düşündüm öz payıma,

Torpağım olsun deyə torpaq aldım ağzma.

Tanrı insanoğluna “Tüpür!” – deyə bağırdı,

Tüpürdü, tüpürcəyi yer üzünə dağıldı,

Yer üzü dümdüz ikən, qırşıb birdən soldu,

Sanki, yoxdan yaranıb, hər yan təpə-dağ oldu.

Tanrı möhkəm hirsləndi, insanoğluna dedi:

“Sən pis fikirlərinlə indi günühkar oldun,

Mənə pislik etməkçün qəlbin pisliklə doldu.

Qoy gizləsin qəlbində sənin xalqın da sənə

Həmin duyğuları ki, bəsləyirsən sən mənə.

Mənim xalqımın isə fikri olsun saf-arı,

Məndən suç gizləyənlər sənin xalqn olsunlar,

Günahkar olanlarsa, sənin malın olsunlar.

Sənin suçunda qaçan gəlsin, qul olsun mənə,

Günahından gizlənən gəlib sığınsn mənə.

***

Günlərdən bir gün idi, Tanrı dolanır idi,

Baxdı, bir ağac gördü, göyə uzanır idi.

Qəribə ağac idi, qolsuz, budaqsız idi.

Tanrı bunu görüncə öz-özünə söylədi:

"Çılpaq qalmış bir ağac, belə qolsuz, budaqsız,

Gözləri heç oxşamır, görkəmi də çox dadsız".

Tanrı buyurdu: "Bitsin doqquz qolu hələlik".

Bitdi dərhal doqquz qol, doqquz budaq üstəlik.

Heç kim bilmir, Tanrının düşüncəsi nə idi,

Soylar törəsin deyə belə bir əmr verdi:

“Doqquz kişi qılınsın doqquz qolun kökündən,

Doqqoz oymaq törəsin həmin doqquz kişidən!”

Bir gün Erlik Tanrının yanında durmuş idi,

Tanrının qarşısında çöküb oturmuş idi.

Nəsə gurultu gəldi Tanrının sarayından,

“Bu nədir?” – deyə Erlik çatladı marağından.

Bunu eşidən Erlik dərhal dedi Tanrıya:

“Nədir bu gurultular, gəlirlər dışarıya?”

Tanrı dedi: “Nə olsun, sən də xansan, mən də xan,

Onlar mənim xalqımdır, mənim əmrimə baxan”.

Şeytan bunu eşidib birdən – birə sevindi,

“Bu ulusu mənə ver, nə olar, Tanrı” - dedi.

Şeytanın bu sözündən Tanrı sezdi işi,

“Xeyr, vermərəm sənə”- deyib bitirdi işi.

Şeytan bu sözdən sonra qərq oldu düşüncəyə,

Min bir qurğu quraraq, əl atd min hiyləyə:

“Bu işi görmək üçün min hiylə hörməliyəm,

Tanrının ulusunu yerində görməliyəm”.

Varmış, yola düzəlmiş, uzun-uzun yürümüş,

Yetmiş bir günə çatmış, amma çox şeylər görmüş.

Baxmış Tanrının xalqı yarısı insana bənzər,

Yarısı quşa, yarısı da vəhşi heyvana bənzər.

Söyləmiş öz-özünə: “Tanrı bütün bunları

Nə etdi, necə aldı? Almalıyam onları.

Tanrının ulusunu ulusum etmliyəm”.

Öz-özünə söyləmiş bunu düşünən şeytan:

Bəs. nə yeyir, nə içir, bu qədər insan?”

Baxmış ki, xalq toplanıb bir ağacın solunda,

Meyvə yeyib, dururlar ağacın tək qolunda.

Yeməmiş heç biri üzbəüzdəki qoldan,

Yaxın getməmiş ora nə sağdan, nə də soldan.

Şeytan bunu görüncə, çaşıb qalmış doğrusu,

Demiş barı soruşum, nə deməkdir görən bu:

"İndi gördüm mən burada sizlərə baxınca,

Niyə meyvə yeyirsiniz bu qollardan yalnızca?"

Tanrının ulusundan biri ona söyləmiş:

"Bu qollardan yeyirik, Tanrı bu əmri verdi,

Biz onun qullarıyq, Tanrı belə dedi.

Tanrı bizə söylədi; Görün bu dörd budağı,

Dəyməsin meyvələrin heç kimsənin dodağı.

Dedi; Gündoğan yöndə beş budaq da var daha,

Sizin aşınız odur, yeyin, gəlin iştaha.

Bunu deyən Tanrımız çıxıb göylərə getdi,

Bu ağacın dibinə iti gözətçi etdi.

Gedəndə isə dedi; Saqın uyuyub qalma,

Əgər şeytan gələrsə, əsla yaxın buraxma.

Gözətçi it yanına təyin etdi bir ilan,

İlana da üstəlik Tanrı etdi elan;

Əgər şeytanı görərsə, möhkəmcə çal şeytanı!

Bərkitdi bu sözlərlə həm iti, həm ilanı,

Dedi; Gündoğan yöndə dörd budaq var heç kəsi

Buraxmayn yanna, qadağandır meyvəsi.

Uzaq tutun hamını, kimsə yaxın durmasın,

Budaqlara qoymayın kimsə əlin vurmasın.

Daha nə etmək olar, beş budaqdan yeyirik,

Tanrının əmridir bu, əmrinə baş əyirik".

Şeytan bunu eşidib, ağaca doğru vardı,

Törüngey adlı biri xalq içində yaşardı,

Şeytan ona yanaşıb al dili ilə söylədi:

"Tanrı sizə demiş ki, dörd qola yön almayın,

Sizin ağlınız varmı? Yalana inanmayn!

Bu dörd qolun meyvəsi yasaq edilmiş sizə,

Heç belə də söz olar? İnanmayın bu sözə!

Bu, böyük bir yalandır, gerçəklə nə işi var?

Meyvəsi qadağıandır, heç belə də söz olar?"

Şeytan deyərkən bunu möhkəm yatırmış ilan,

Bixəbərmiş büsbütün baş verən əhvalatdan.

Şeytan girdi yavaşca lap qəlbinə ilanın,

Aldatmağa başladı, azmı onun yalanı?

Dedi: "İlan, uyuma! Dırmanb çıx ağaca!"

İlan başlayıb birdən dırmandı sıx ağaca,

Bu yasaq meyvələrdən birinci daddı ilan,

Şeytana uyub oldu birinci qanun pozan.

Hanı? Törüngey adl bir ər kişi vardı ha,

Vurulmuşdu könüldən Eci adlı bir qıza.

Yasaq meyvə yeyərkən səsləndi birdən ilan:

"Ey Eci, Ey Törüngey, siz də yeyin bunlardan!"

Törüngey ağıllıydı, dedi: "Yeməm bunları,

Necə yeyə bilərik yemək yasaq olanı.

Tanrı bizə buyurmuş yeməyin ondan deyə,

Mən ağzıma vurammam, sən mənə versən belə.”

İlan bunu eşitcək dərin düşüncəyə batdı,

Bir dənə meyvə alıb Eci qıza uzatdı.

Eci meyvəni alıb yardı, ikiyə böldü,

Meyvənin sularını sürtdü nişanlısına.

İnsanların bədəni o vaxt tamam tük imiş,

Bu meyvədən yeyincə tükləri də tökülmüş.

Qalmışlar hər ikisi çılım-çılpaq, apayaz,

Utanıb axtarmışlar gizlənəcək yer bir az.

Biri qaçıb gizlnmiş bir ağacın dalına,

O birisə gizlənmiş bir kölgənin ardına.

Tanrı gəlib baxmış ki, hamı qaçıb dağılmış,

“Ey, Eci, ey Törüngey, gəlin!” - deyə çağırmış,

“Haradsınz?” – deyərək Tanrı axtarmış yenə.

İnsanlar cavab vermiş bu sual üzərinə:

“Ağacın altındayıq, amma gələmmərik biz”.

Tanrı demiş: “Törüngey, söylə nə etdiniz siz?”

Kişi demiş: “Ey Tanrı, Eci aldanıb durdu,

Yasaq olan meyvədən dodaqlarına vurdu”.

Dönüb qadın tərəfə Tanrı demiş Eciyə:

“Mən nələr eşidirəm, belə etdin sən niyə?”

Qzsa demiş: “Ey Tanrm, mən baxmadm meyvəyə,

İlan söylədi mənə; bu meyvəni ye deyə.

Tanrı ilana demiş: “Dinləmədin sözümü!”

İlan boynunu bükmüş: “Tutammadım özümü,

Bilmədim necə oldu, şeytan aldatdı məni”.

Tanrı gözləmirdi heç şeytandan bu hiyləni.

Tanrı demiş: “Ey ilan şeytan sənin içinə

Necə oldu girdi ki, uydun şeytan işinə?”

İlan demiş: “ Ey Tanrım, uymazdım hiyləsinə,

Qulağım səndə idi, hazırdm hər səsinə.

Mən burada yatarkən şeytan içinə girmiş,

Möhkəm aldadıb məni, bir xainə çevirmiş".

Tanrı üz tutmuş itə: "Ey köpək, sən nə etdin?

Şeytanı tutmayaraq niyə yuxuya getdin?"

Köpək demiş: "Vallahi, şeytan nədənsə mənim

Gözümə görülmədi, onu necə görəydim?"

Bunu eşidən Tanrı ilana demiş bir yol:

"Ey ilan, bundan sonra şeytanın lap özü ol!

İnsan düşmənin olsun, öldürüb canın alsın,

Pisliyin timsalı ol, adın da elə qalsın!"

Ən çox qıza hirslənmiş Tanrı belə söyləmiş:

Vəfasız örnəyi, ey Eci adlı qadın,

Şeytan aşını yeyib onun sözünə qandın.

Mənim "yemə" dediyim meyvəni alıb yedin,

Üstəlik, Törüngeyə "sən də bunu ye" dedin!

Bundan sonra uşağı ancaq qadın doğacaq,

Onu doğum sancısı, iztirablar boğacaq!”

Tanrı ərə üz tutub, ona da belə demiş:

“Sən də qadına uydun, tutdun şeytan sözünü,

Şeytan aşını yeyib, itirdin sən özünü.

Şeytana möhkəm uydun, sözlərimi unutdun,

Demək, sən məni atdın, gedib şeytanı tutdun?

Mənə qulluq etməyən işığımla dolarmı?

Mənim sözümdən çıxan ehsanımı bularmı?

Sənin yerin nur deyil, qaranlıq yerlər olsun,

Qəlbin işıqla deyil, ancaq zülmətlə dolsun!

Yaxşı bilirsiniz ki, şeytan mənim düşmənim,

Şeytanla dostluq edən, utan, oldun düşmənim!

Nədir sənin etdiyin, rəva gördüyün mənə,

Sənin bu etdiyini düşmən də etməzdi sənə!

Əgər sən yeməsəydin şaytanın bu aşını,

Mənim sözümü tutub, döndərsəydin başını,

Olardın, eş, arxadaş Tanrı yanında tez – gec,

İndi artıq özünə öz yolunu özün seç!

Oğul-uşaq törədin, artırın soyunuzu,

Doqquz oğlan, doqquz qız törətsin boyunuzu.

Mən heç zaman yaratmam faydasız insan oğlu,

Şeytanın yol yoldaşı, vəfasız insan oğlu,

Şeytanın duasını alan sən insan oğlu!"

Tanrı şeytana sonra qəzəblə belə dedi:

"Sən necə aldadırsan insasnı elə?" – dedi.

Şeytan tanrıya baxıb həyasızcasına demişdi:

"Ulusundan ver deyə xahiş etdim mən sənə,

Xahişimi rədd edib, "vermirəm" dedin mənə.

Mən də oğurluq etdim, hiylə silahın aldım,

Atla qaçanı belə düşürüb yerə saldım.

Qəlbinə fəsad əkdim araq, içki içənin,

Yumruqla canın aldım insanla döyüşənin.

Suya gedənlərin də kəsəcəyəm yanını,

Suyun dibinə basıb alacağam canını.

Ağaca çıxanların, qayaya çıxanların,

Ayağını büdrədib, olaram yıxanları".

Bunu eşidən Tanrı şeytana belə dedi:

"Sənə yer hazrladım üç qat yerin dibində,

Nə günəş var, nə də ay qaranlıqlar içində.

Səni göydən aşağı sürdürüb endircəyəm,

Səni yerin altına basıb sindirəcəyəm".

Bundan sonra da tanrı insana belə dedi:

"Məndən yemək gözləmə, məndən sənə kömək yox,

Çalışın özünüz aş bişirin, olun tox!

Bundan sonra mən sizə görünməm, hər şey bitir,

Mənim elçim May-Tərə sizinlə yerə gedir.

Hər nə lazımsa artıq sizə öyrədəcək,

Mənim elçim olacaq, xəbərlər gətirəcək!"

***

Göndərdi May-Tərəni, Tanrı gedib qatına,

Öyrətdi nə lazımsa, insanın həyatına.

Arpalı qara çörək, sağlam aşıyla doyduq,

Tanrı aşı yerinə acı soğanı qoyduq.

Günlərin birində Şeytan May Tərəyə söylədi:

Nə olar, ay May Tərə, nəyə and verim səni,

Tanrıdan xahiş elə, qoy bağışlasın məni.

Xilas olub çıxaran, bəlkə, Tanrı qatına,

Bəlkə də qovuşaram göylərin həyatna".

May Tərə razı oldu, Tanrı qatına vardı,

Altmış iki il, – derlər, – Tanrısına yalvardı.

Tanrı insafa gəlib, şeytana belə dedi:

"Ey şeytan, əgər mənə düşmənçilik etnəsən,

İnsanlara xoş baxıb, pis yollara getməsən,

Bağışlayaram səni, qatımda otur" – dedi,

Tanrının əfvi ilə şeytan göylərə getdi.

Tanrıya vardı bir gün, belə xahiş etdi:

“İcazə ver, ey Tanrı, göylər düzəldim mən də,

Qut ver mənə, nə olar, göyüm olsun sayəndə”.

Xahişini dinləyib Tanrı qut verdi ona,

Dedi: “Sən də göy düzəlt öz hesabına”.

Şeytan qutu alnca, özünə göy düzəltdi,

Göylər şeytanla doldu, cinlərə köşk düzəltdi.

Göylərdə neçə-neçə müqəddəs kişi vardı,

Tanrıya yardım edib onlar göydə yaşardı.

Mandı-Şirəydi biri, düşünüb durdu birdən,

Şeytanları görüncə qanı qaraldı birdən:

“Bu necə sarsaq işdir, göydə şeytan qaynayır,

Tanrının insanları gedib yerdəmi yaşar?

Şeytanın adamları göy üzündə dolaşır?”

Tanrıdan incəyərək Mandı – Şirə birbaşa,

Şeytana düşmən olub hazırlaşdı savaşa.

Şeytan da qarşı çıxdı, vuruşdular bir zaman,

Mandı – Şirəni yıxdı, atəş püskürdü şeytan.

Mandı-Şirə qaçaraq, Tanrıya doğru gəldi,

Onun halnı görən Tanrı bir xeyli güldü.

Dedi: "Ey Mandı-Şirə, haradan gəlirsən belə?"

Mandı-Şirə soruşdu: "Bu nə halətdi elə?

Ey Tanrım, bir bura bax, olmaz belə vəziyyət,

İndi deyirəm nədir mənə verən əziyyət.

Şeytanın adamları göydə həyat sürürlər,

Tanrının adamlara qara yerdə çürürlər.

Çalışdım şeytanı göy üzündən qovmağa,

Gördüm hələ gücüm yox o alçağı boğmağa."

Bu sözləri eşidən Tanrı belə söylədi:

"Qorxma, ey Mandı-Şirə, məndən qüvvətlisi yox,

Şeytanın gücü indi, əlbət, səndən daha çox.

Hər şeyin zaman var, onun vaxtı gələcək,

Bu gün atıl döyüşə, – bunu Tanrı deyəcək".

Gözlədi Mandı-Şirə, ötdü illərin çoxu,

Bir gün uyuyan zaman gördü gözəl bir yuxu.

Düşündü Mandı-Şirə, deyəsən çatıb zaman,

Şeytanla vuruşmağın vaxtı keçməsin, aman!

Tanrı da söyləmişdi, gözlə, vaxtı gələcək,

Bu gün atıl döyüşə, – bunu Tanrı deyəcək.

Gözlədiyim o günlər artıq gəlmiş olmalı,

Aradan illər keçdi, zaman dolmuş olmalı.

Gerçəkdən Tanrı onu görərək, belə dedi:

"Ey Mandı-Şirə, bu gün arzuna çatacaqsan,

Göylərdən onu qovub, yerə atacaqsan,

Şeytandan çox qüvvətli, çox güclü olacaqsan.

Qutladım qutla səni, güclüdür mənim qutum,

Hər işdə arxan olsun, sənədir hər umudum".

Mandı-Şirə bu sözə qəh-qəh çəkdi, bayıldı,

Xeyli uğunub getdi, sonra isə ayıldı:

“Nə oxum, nə oxluğum, nə tüfəngim var mənim,

Nə qarğım, nə mizrağım, nə qılıncım mənim.

Bilirsən ki, ey Tanrım, bircə yalın əlim var,

Yalın əlin gücüylə ona nə etmək olar?”

Tanrı dedi: “Nə verim, qalib gəlsən ona?”

Mandı-Şirə gülümsəyərək, dedi Tanrısına:

“Mənim heç bir şeyim yox, görəcəyəm mən onu,

Salıb ayaq altına, döyəcəyəm mən onu.

Bax, bu əllərimlə mən onu tutacağam,

Başım üstə qaldırıb, torpağa atacağam”.

Tanrı dedi: “Al bunu, al mizrağımı, al,

Şeytanı görən kimi mizrağımı ona çal”.

Mandı-Şirə alaraq bu mizrağı əlinə,

Çıxıb göylərə daldı, getdi şeytan elinə.

Erliki tutub yendi, şeytanı yaxaladı,

Göydə nəyi var isə, hamsını parçaladı.

Şeytanın hər şeyini göylrdən yerə atdı,

Şeytan bunu görüncə, özü də göydən qaçdı.

Bundan əvvəl dünyada nə qaya, nə daş vardı,

Nə də indiki kimi yüksələn bir dağ vardı.

Şeytanın göylrindən düşən parçalar ilə,

Dünya qarışdı tamam qayalar, daşlar ilə.

Dünyann hər tərəfi dağla, təpəylə doldu,

Dqğların hər tərəfi yamaclı sarp, dik oldu.

Dümdüz ikən dünyamz, dünyaya olan oldu,

Tanrının yaratdığı beləcə viran oldu.

Şeytana tabe olan kim varsa, atdı göydən,

Kimi suda boğuldu, kimi göydən düşərkən.

Kimi düşdü sığırın buynuzuna öldü,

Kimi düşdü ağaca, budaqlarında öldü.

Kimi də daşa dəydi, insanlara kimisi,

Əl-hasili, öldülər, nə var-nə yox, hamısı.

***

Şeytan Tanrıya vardı, göydə bir yer istədi:

"Göydə nəyim vardısa, yıxıldı-getdi" – dedi,

- "Nə olar ki, ey Tanrım, kiçik yer ver mənə".

Tanrı şeytana dedi: "Yox yer vermərəm sənə".

Şeytan dedi: "Ey Tanrım, balaca yer olsun,

Tarla düzəldim orda, mənim də tarlam olsun".

Tanrı söylədi: "Olmaz"! Erlik: "Bİr yer ver mana,

Yalnız beş qulac olsun". Tanrı vermədi ona.

Şeytan gördü ki, olmur, gedib tapdı bir zopa,

Zopanı yerə basdı, sonra başladı gopa:

"Yer ver mənə bu qədər, nə az olsun, nə də çox,

Zopanın ucu boyda, artığında gözüm yox".

Tanrı gülərək dedi: "Əl çəkmirsən, nə fayda?

Yer verirəm sənə zopanın ucu boyda".

Şeytan qurdu orda yenə yuvasını,

Tez başladı yaymağa bədxahlq havasını.

Şeytann niyyətini Tanrı görüb anladı,

Var gücüylə qışqırdı, şeytanı yamanladı:

"En lap yerin dibinə, bir də görməyim səni,

Apar burdan nəyin var, tez yığ şələ-şüləni!

Düzəlt yerin dibində nə istəsən özünə,

Tez yığ şələ-şüləni, bir də dəymə gözümə!

Tez rədd elə buradan nə var, olub-qalanı,

Qur yerin lap dibində sarayın, qalanı!

Sönməz odun alovu göylərdə heç sönməsin,

Qoy, nə günəş, nə də ay gözünə görünməsin.

Tez gir yerin altına, orda dustaq yaşa sən,

Ancaq qiyamət günü çağıraram səni mən.

İşığımda yaşarsan əgər düz yolu seçsən,

Lap dərinə salaram əgər pis yolla getsən.

Bil bunu, sonun budur!”

Şeytan dedi: “Düşərəm yerin yeddi qatına,

Ölüləri ver mənə, aparım yer altına.

Tanrı dedi: “Heç zaman mən bu işə getmərəm.

Ölünü sənə verim? Elə bir şey etmərəm”.

Şeytan dedi: “Yer altında ailəm yox, xalqım yox,

Bəs, mən necə yaşayım, özüm tənha, dərdim çox”.

Tanrı dedi: “Ey şeytan, gəl zəhləmi tökmə sən,

Mən sənə qut vermişəm, insan yarat, diləsən”.

***

Şeytan qutu alınca, göstərdi öz xislətin,

Yer altında düzəltdi bir körük, bir kəlbətin.

Çəkic alıb əlinə, başladı örs vurmağa,

Örslə çəkic zərbindən yarandı bir qurbağa.

Bir vurdu, ilan çıxıb qıvrılaraq qeyb oldu,

Bir vurdu ayı çıxdı, qaçıb toz-duman oldu.

Bir vurdu, donuz çıxdı, donuzların ən vəhşisi,

Bir vurdu albıs çıxdı, ruhların saçlısı.

Bir vurdu, Şulmus çıxdı, hər tərəfə şər saçdı,

Bir vurdu, dəvə çıxdı, Tanrının səbri daşdı.

Tanrı hirs ilə gəldi, topladı var hər nəyi,

Körük, çəkic, kəlbətin – şeytanın hər bir şeyi.

Bütünlüklə yığılıb, atəşlərə qalandı,

Körüyün alovundan bir qadıncıq yarandı.

Kəlbətinlə çəkicdən bir ər kişi törəndi,

Tanrı hirslə qadının düz üzünə tüpürdü.

Qadın quş olub uçdu, Kordoy quşudur adı,

Bataqlığ qorxudur, hər it ona uladı.

Kişi də bir quş oldu, ona deyirlər Yalban,

Ayaqları çox uzun, surəti də çox yaman.

Çox qəribə quşdur bu, nədənsə yox əlləri,

Gəzib tapır, – harda var, - atılmş çəkmələri.

Ən böyük əylncəsi topuğunu gəmirmək,

Evlərdəki nəcislər ona ən gözəl yemək.

***

Tanrı yığdı xalqını, öyüd nəsihət verdi:

“Davar yaratmışam ki, sizin üçün aş olsun,

İçin təmiz sulardan, qoy könlünüz xoş olsun.

Yardım edin, deyirəm, sizə yardım edərkən,

İndi artıq gedirəm, qaytmaram çox erkən.

Sonra köməkçilərə – ruhlara tapşırdı:

“Bu sənin vəzifəndir ey Şal-Yimə, dinlə sən,

Araq içərək sərxoş olanları qoru sən.

Balaca uşaqları, quzuları qoru sən,

Balaca dayçaları, buzovları qoru sən.

Sən qoru insanları, öz əcəliylə ölən,

Məndən rəhmət ummasın öz-özünü öldürən.

Tanrıya xidmət üçün, xalqına xidmt üçün,

Savaşda ölmək üçün, xidmətdə ölmək üçün.

İnsanları sən topla mənə gətirmək üçün,

Şeytanı səndən uzaq, iraq yerlərə sürdüm.

İnsan oğlu, bunu bil, xoşbəxtlik olsun deyə,

Şeytan gəlsə yanna yemək istəmək üçün,

Qorxma, ver öz aşını, yaxşılıq olsun deyə.

Şeytan gəlsə yanına sənə aş vermək üçün,

Bil ki, edir bu işi bədbəxtlik olsun deyə.

Şeytan aş versə əgər, düşün, nə üçün verir,

Arzulayır insanlar ulusum olsun deyə.

Unutma son sözümü, adımı an hər zaman,

Böyük Tanrı həmişə xalqının olsun deyə.

Adımı andıqca sən ulusum olacaqsan,

Mənə tabe olduqca qut ilə dolacaqsan.

Çox uzaq ölkələrə indi mən gedəcəyəm,

Unutma, çox çəkmədən geriyə dönəcəyəm.

Tanrı qayıtmayacaq deyə ağlını pozmayasan,

De ki, Tanrı gələcək! Bunu unutmayasan!

Görür mənim gözlərim bütün yaxşılıqları,

Heç yayınmaz gözümdən sənin bədxahlıqların.

Dünya ulusu üçün təyin edim yerimə,

Sizə baxsın Yapqara, Mandı-Şirə, Sal Yimə.

İnsanlara yaxşı bax, ey Yapqara, Yapqara,

Şeytan bir gün gələrsə, bil ki, ruhu qapqara!

Ölən insanların ruhunu çalacaqdır,

Özünün ulusuyçün yurduna alacaqdır.

Saqın, varma üstünə, Mandı Şirəyə söylə,

Mandı Şirə qutludur, onu yenər böylə".

Dedi: "Ey Bodo-Sunqgü, qoru ayla günəşi,

Mandı-Şirə, sən də bax, saxla ayla günəşi!

Pisləri yaxşılardan sən uzaq tut, May Tərə,

Düşmənləri qövmümdən uzaq tut, Mandı-Şirə.

Adımı an hər zaman, tənینə güc gəldikcə,

Qoyma pis iş tutsunlar, sən əlindən gəldikcə.

Ölənlərin mirası qoy hamya paylansın,

Bu mirasdan yetimlər, bədbəxtlər də pay alsın.

Əgər adı çıxmışsa, bir xanın yaxşı deyə,

Sən inanma bu sözə, xalqı da yaxşı dinlə.

Öyrət insanlara sən hər dəm yaxşı olmağı,

Öyrət tilovla balıq, torla balıq tutmağı.

Heyvan da bəsləməyi də öyrət, yolu nədirsə,

Öyrət sincab tutmağı, qoy tiksinlər əlbisə.

İnsana doğru yolu sən məndən yaxşı,

Təlim elə onlara hər şeyi məndən yaxşı".

***

Tanrı bunları deyib ordan uzaqlaşdı,

Mandı-Şirə dünyada təkcə, tənha qalmışdı.

Bir qarmaq tapdı, dərhal tilova qarmaq taxdl,

Kəndiri əyirərək bir tor hörüb buraxdı.

Bir də qayıq düzəldib onlarla balıq tutdu,

Balıq çox olmuşdu, bəxtiyardı, məsuddu.

Barıtı icad edib, tüfənglə qovladı,

Tüfəngin köməyi ilə neçə sincab ovladı.

İşi yaxşı gedirdi Tanrının sözü ilə,

İşi yaxşı gedirdi Tanrı öyüdü ilə.

Hər şeyi edə bildi, hər şeyi bula bildi,

Tanrıdan, ac qalmadı, hər şeyi ala bildi.

Mandı-Şirə söylədi günlərdən bir gün,

Bir rüzgar alıb məni uçuracaqdır bu gün.

Gerçəkdən külək qopdu, Mandı-Şirəni aldı,

Bunu görə Yapqara: "Mandı Şirəni" – dedi,

- "Tanrı göyə apardı, artıq bizlərdən getdi.

Onu axtarmam artıq, onu görəmməm artıq,

Tanrının tək elçisi indi mənəm artıq.

Sanki, yeni doğuldum, geriyə yeni gəldim,

Tanrının elçisiyəm, dünyaya yeni gəldim.

Doğru yoldan sapmayan – Tanrıdan öyrənilən,

Qüvvətin əsli budur Tanrıdan gələn”-

Deyə öyüdlər verdi, sonra da çıxıb getdi (Ögəl, 2006, səh. 447 – 460).

***

Eyni dastanın başqa variantları da yazıya alınmışdır:

(ll variant)

Bir zamanlar yalnız Tanrı Qara xan və su vardı. Qara xandan başqa görən və sudan başqa görünən yox idi. Ağ ana göründü. O, Qara xana “yarat” deyib yenidən suya daldı. Bunu eşidən Qara xan bir kişi yaratdı. Qara xanla kişi intəhasız suyun üstü ilə iki qara qaz kimi uçurdular. Lakin halından məmnun olmayan kişi, Qara xandan daha yüksəkdə uçmaq istəyirdi. Onun istədiyini bilən Qara xan kişidən uçmaq qabiliyyətini aldı. Kişi dibsiz suya yuvarlandı. Elədiyindən peşiman olub Tanrı Qara xandan bağışlanmasını xahiş etdi.

Tanrı Qara xanın göstərişi ilə sudan bir ulduz çıxdı. Kişi həmin ulduzun üstünə çıxıb xilas oldusa da, Qara xan onun bir daha uça bilməyəcəyini nəzərə alıb dünyanı

yaratmaq qərarına gəldi. Kişiyə buyurdu ki, suyun dibinə dalaraq torpaq çıxarsın. Şər düşüncədən əl çəkməyən kişi torpaq gətirərkən fikirləşdi ki, özü üçün gizli bir dünya da yaratsın, ona görə də torpağn bir qismini ağzında saxladı. Elə ki ovcundakı torpağı su üzərinə səpdi, Tanrı Qara xan torpağa "böyü" deyə buyurdu. Torpaq böyüyüb dünya oldu. Lakin kişinin ağzında saxladığı torpaq da böyüyüb onu boğmağa başladı. Qara xan ona "tüpür!" deməsəydi, boğulub öləcəkdi.

Tanrı Qara xan dümdüz bir dünya yaratmşdı, lakin kişi tüpürəndə ağzından çıxan torpaq bataqlıqlar, təpələr əmələ gətirdi. Hirslənən Qara xan itaətsiz kişiyə "Erlik" (şeytan) adını verib, özünün işıqlı dünyasından qovdu.

Sonra yerdə doqquz budaqlı ağac bitirdi, hər budağın altında bir adam yaratdı ki, onlar doqquz insan irqinin ataları oldular. Erlik insanların gözəlliyini, xoş həyatını görüb Tanrı Qara xandan xahiş etdi ki, həmin insanları onun ixtiyarına versin. Qara xan vermədi. Erlik istəyindən dönmədi, insanları öz tərəfinə çəkməyə başladı. Qara xan insanların azğınlığını, Erliyə aldanmalarını görəndə, onları özbaşına buraxdı. Erliyi isə yer altındakı qaranlıq dünyanın üçüncü qatına qovdu. Özü isə göyün on yeddinci qatını yaradıb oraya çəkildi. Mələklərindən birini insanları qorumaq üçün yer üzünə göndərdi.

Erlik Tanrı Qara xanın qərar tutduğu gözəl göyü görüb, ondan icazə istədi ki, özü üçün bir göy yaratsın. İcazə alıb yaratdı və aldatdığı şər ruhları öz göyündə yerləşdirdi. Lakin Qara xan görəndə ki, Erliyin təəbəsi onunkundan daha yaxşı yaşayır, mələklərdən birini göndərib həmin göyü dağıtdırdı. Göy yıxılıb dünyaya düşdü, dağlar, dərələr, ormanlar meydana gəldi. Və acıqlanmış Tanrı Qara xan Erliyi yerin ən aşağı

qatına sürdü. Buyurdu ki, günəşsiz, aysz, ulduzsuz yerdə dünyann sonuna qədər qalsın.

Tanrı Qara xan göyün on yeddinci qatında oturub kainatı idarə etməkdədir. Ondan bir qat aşağıda Bay Ülgen Altun dağda qızıl bir taxt üstündə oturub, Göyün yeddinci qatında Gün Ana, altıncı qatında Ay Ata oturmuşdur (Cəfərov, 2004, səh 13).

***

lll variant:

Ülgən insan oğlunu yaradarkən, ətini torpaqdan, sümüklərini isə daşdan düzəldib, ona ilk şəklini verdi. Qadını da kişinin qabırğa sümüklərindən meydana gətirdi. Lakin bunların ruhu yox idi. Bir ruh tapmaq, onları canlandırmaq lazım idi. Bunun üçün yola çıxdı. Yola çıxmazdan əvvəl insanı qorumaq üçün tüksüz bir it yaratmağı da unutmadı. Az sonra şeytan Erlik oraya gəldi. Köpək Erliki görən kimi hürməyə başladı və insan nümunəsinə yaxınlaşmağa qoymadı. Lakin Erlik ona yaxınlaşdı, "Mən sənə tük verməyə, insan nümunələrini də canlandırmağa gəldim. Sakit ol, hürmə" dedi.

İt ona inandı və susdu. Şeytan itə nəcisindən atdı və "Bunu ye" dedi. İt nəcisi yeyən kimi tükləndi və insanları şeytanın öhdəsinə buraxdı. Şeytan əlinə qamış alaraq onu insanların arxasına soxdu və bərkdən üflədi, sonra çıxıb getdi.

Tanrı Ülgen gəldi. Nə görsə yaxşıdır? Qadın və kişi canlanmış, çoxdan ruh sahibi olmuşdular. Ülgen özünü itirmişdi. Nə etməliydi? Yeni bir insanmı yaratmalıydı?

Bu vaxt bir qurbağa çıxdı və Ülgenə yaxınlaşaraq dedi:

-Onları niyə məhv edəsən ki? Qoy qalsınlar, yaşayanı yaşat, öləni də öldür.

Ülgen də onları buraxıb getdi (Ögəl, 2006, səh. 460).

***

Altaydakı Qara Orman tatarlarndan toplanmış lV variant:

Çox-çox qədim zamanlarda Payana insan şəklində bir şey düzəltmişdi. Amma ona can vermək üçün bir ruh tapmamışdı. Buna görə də Payana göyə doğru yola çıxdı və ruhu axtarmağa getdi. Yola çıxmamışdan öncə iti insan şəklinin qorumaq üçün onun yannda qoydu, özünə də tapşırdı:

Sən burada qal, gələn olsa, hür və diqqət elə!

O dövrdə it hələ tüksüz idi, tükü heç yox idi. Az sonra şeytan göründü və itə yaxınlaşb belə dedi:

-Sən bu insanı mənə versən, mən də sənə qızıl tüklər verərəm və tük sahibi olarsan.

Köpək qızıl tüklərin həvəsinə şeytanın şərtini qəbul etdi, insanı ona verdi. Erlik insanı əlinə götürdü, hər yerinə tüpürdü. Az sonra Tanrı insana ruh vermək üçün gəldi. Erlik Tanrının gəldiyini sezincə, dərhal oradan uzaqlaşdı. Tanrı gəlib nə görsə yaxşıdr? Gördü ki, özünün düzəltdiyi insan bütünlüklə tüpürcək içindədir. Tanrı nə qədər

çalışdısa, insanı təmizləyə bilmədi. Baxdı ki, olmayacaq, insanın içini çölünə çevirdi, buna görə də insanın içi tüpürcəklə dolu qaldı. Tanrı itə hirsləndi, onu yaxşıca döydü və ona belə dedi:

-Sən ey köpək! Sən həmişə belə bədbəxt qalacaqsan. İnsan oğlu necə istərsə, sənlə elə rəftar etsin. Səni istərsə döysün, istərsə öldürsün. Sən həmişə it olaraq qal (Ögəl, 2006, səh. 460 – 461).

***

Veselovskinin topladığı V variant da mövcuddur. Onu fraqment adlandırmaq daha doğru olar:

